# *FIRST®* LEGO® League Challenge Respublika turniri 2026-da İştirak Qaydaları

*FIRST®* LEGO® League (FLL) Respublika turniri 2026-cı ildə STEAM Azərbaycanın təşkilatçılığı ilə həyata keçiriləcək.

Hər il 10-16 yaşlı şagirdlərin mentor rəhbərliyi altında komanda şəklində qatıldığı bu turnir üçün qlobal gündəmə uyğun aktual bir mövzu müəyyən edilir. FIRST LEGO League (FLL) Challenge kateqoriyası 10-16 yaş aralığında olan iştirakçılara (5-11-ci sinif şagirdləri; 1 iyun 2025-ci il tarixinədək 17 yaşı tamam olmayanlar) elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyat (STEAM) biliklərini əyləncəli və praktiki üsullarla mənimsətməyi hədəfləyir. İştirakçılar "Challenge"-a qədər STEAM-in əsaslarını başa düşəcək və bu yolda öyrənmə, özünə inam və komandada işləmək bacarıqlarını formalaşdıraraq qazandıqları bilikləri yarışlarda tətbiq edəcəklər. İştirakçılar FLL-ə hazırlıq prossesində praktik STEAM öyrənməyə, robototexnika vasitəsilə sınaqdan keçirməyə və iştirakçılarda tənqidi düşüncə, kodlaşdırma və dizayn bacarıqlarını inkişaf etdirməyə ruhlandırır. Bundan başqa, iştirakçıların həm hazırlıq prosesində, həm də turnir günlərində əylənməsi proqramın əsas məqsədlərindən biridir.

Turnirdə yalnız **qeydiyyatdan keçmiş və 2025 FLL Challenge set (45829**) **yarış sahəsinə** sahib komandalar iştirak edə bilər.

1. Turnirdə **10-16 yaş (minimum 10, maksimum 16)** aralığında olan **orta məktəb şagirdləri** iştirak edə bilər.
2. Komandanın tərkibi **1 rəhbər** (18 yaşı tamam olmuş şəxs) və **2-4 nəfər şagirddən (minimum 2, maksimum 4)** ibarət olmalıdır.
3. Turnirdə iştirak etmək üçün **Spike Prime Set (45678)**, **EV 3 Core Set (45544) və ya LEGO® Mındstorms Robot Inventor (51515) robot setləri** lazımdır.
4. Təşkilatçılar iştirakçı komandaları heç bir robot dəsti və yarış sahəsi ilə təmin etmir.
5. İştirakçı komandalar ehtiyac duyduqları robot və avadanlıqları **özləri təmin etməlidir.**
6. **Bir ədəd 2025 FLL Challange set (45829**) yarış sahəsi ilə 2 komanda qeydiyyatdan keçə bilər.